# Abşeronlular Heydər Əliyev ənənələrinə sadiq olduqlarını nümayiş etdiriblər



Abşeron rayonunda "Heydər Əliyev İli" çərçivəsində keçirilən konfransda Milli Məclisin deputatları, YAP rayon təşkilatının üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. İştirakçılar öncə Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Konfrans Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başlayıb. Çıxış edənlər vurğulayıblar ki, Azərbaycan Heydər Əliyevin sayəsində sürətli inkişaf yolu tutmuşdur. Bu gün bütün istiqamətlər üzrə əldə olunan yüksək nəticələrin təməli Ulu Öndər tərəfindən qoyulmuşdur. Heydər Əliyev ölkəmizi və xalqımızı bütün dəhşətli ssenarilərdən, hətta dövlət müstəqilliyimizin itirilməsindən xilas etmişdir.

Sonra şəhid Fərid Məmmədovun həyat yoldaşı Şəhla Məmmədova və şəhid İlqar Vəliyevin oğlu, Abşeron RİH yanında İctimai Şuranın üzvü Vəli Vəliyev çıxış edərək Heydər Əliyevin Azərbaycanın inkişafı istiqamətində gördüyü işlərdən, həyata keçirdiyi layihələrdən və dövlət müstəqilliyini qorumaq, daha da inkişaf etdirmək və dünya dövlətləri sırasına ucaltmaq üçün müəyyənləşdirdiyi uğurlu siyasi kursdan söz açıblar.

Tədbirin sonunda YAP -a yeni üzv olanlara partiyanın vəsiqələri təqdim olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 1 aprel.- S.7.